*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 573-579*

https://doi.org/10.62837/2025.10.573

**6UOT: 821.111(73)**

**GÜNAY TELMAN QIZI ƏLIYEVA**
**Gəncə Dövlət Universiteti**
**https://orcid.org/0009-0000-1757-3524**
**gny.aliyeva@adu.edu.az**

# C. K. OUTSUN ROMANLARINDA "BATAQLIQ" METAFORASI

## XÜLASƏ

Məqalədə çağdaş Amerika yazıçısı C.K.Outsun "Qara su", "Sarışın" və "Bataqlıqdakı qadın" romanlarında qadın kimliyinin sosial-mədəni konstruksiyası, psixoloji parçalanması və travma təcrübəsi təhlil edilir. Outsun təqdim etdiyi, patriarxal cəmiyyətin yaratdığı gender bərbərsizliyi, ictimai stereotiplər və şiddət strukturları fonunda formalaşan Kelli, Merilin Monro və Meredit obrazları C. Batlerin genderin nəzəriyyəsi, Z.Freyd və J.Lakanın travma nəzəriyyələri, eləcə də J.Bodriyarın simulyakr anlayışı əsasında qadın subyektivliyinin deqradasiyası baxımından araşdırılır. "Bataqlıq" və "qara su" kimi metaforaların qadının susdurulması, unudulması və kimliyinin məhv edilməsi ilə əlaqəli simvolik məna daşıdığı göstərilir. Outs qadın obrazlarını həm patriarxal zorakılığın qurbanı, həm də travmanı aşaraq öz kimliyini yenidən qurmağa qadir subyektlər kimi təqdim edir. Məqalədə həmçinin bataqlıq metaforası həm real, həm də simvolik səviyyədə qadın kimliyinin parçalandığını göstərmək üçün əsas bədii vasitə kimi təhlil olunur.

**Açar sözlər:** qadın kimliyi, media bataqlığı, uşaqlıq travması, psixoloji parçalanma, kimlik böhranı

Coys Kerol Outsun yaradıcılığı çağdaş Amerika ədəbiyyatında qadın təcrübəsinin və kimliyinin çoxşaxəli tədqiqi baxımından mühüm yer tutur. Yazıçının əsərlərində qadın obrazları sadəcə sosial statusun və ya cinsi kimliyinin təzahürü kimi deyil, həm də mürəkkəb psixoloji, mənəvi və mədəni proseslərin daşıyıcısı kimi təqdim olunur. Qadınların azadlıq, kimlik və özünüifadə mübarizəsini sosial-mədəni kontekstdə araşdıran müəllif patriarxal düşüncənin yaratdığı məhdudiyyətləri ifşa edir və bu məhdudiyyətlərin qadın subyektivliyinə təsirini bədii şəkildə göstərir. Outs əsərlərində tez-tez cəmiyyətin yaratdığı miflərə, gender və travma məsələlərinə, qadınların şəxsi və ictimai kimlikləri arasındakı toqquşmalara toxunaraq bu elementlərin qadın kimliyinin həm formalaşma, həm də deqradasiya proseslərini müəyyənləşdirən mədəni kodlar olduğunu vurğulayır. Xüsusilə, "Qara su", "Sarışın" və "Bataqlıqdakı qadın" romanlarında qadın obrazlarını mürəkkəb psixoloji və simvolik strukturlar çərçivəsində təqdim edən yazıçı fraqmentarlıq, intertekstuallıq, qadın kimliyinin rekonstruksiyası kimi tipik postmodern xüsusiyyətlər vasitəsilə

qadınların cəmiyyətin tələblərinə uyğun formalaşdırılmasını və eyni zamanda identikliklərinin pozulmasını təsvir edir.

"Qara su" romanında Keri Kelleher (Meri Kopeçne), "Sarışın"da Merilin Monro (Norma Cin), "Bataqlıqdakı qadın"da isə Ceri Merser (M.R. – Meredith Ruth Neukirchen) uşaqlıq travmalarının, patriarxal təzyiqlərin və gender əsaslı sosial təsnifatların təsiri altında kimliklərinin parçalanması prosesi ilə üzləşirlər. Bu obrazların həyat təcrübələri ya qadınların çox vaxt ideallaşdırıldığını, ya da əksinə əxlaqi və psixoloji baxımdan damğalanaraq "bataqlığa" atıldığını göstərir. "Bataqlıq" anlayışı burada yalnız fiziki məkan mənasını ifadə etmir, eyni zamanda qadın subyektivliyinin, daxili azadlığının və kimliyinin məhv edildiyi simvolik mühitə işarə edir.

Cudit Batler "Gender problemi: feminizm və kimliyin təhrifi" kitabında S.Bovuarın fikrinə müraciət edərək yazır ki, "Bovuara görə, qadın bədəni qadınların mahiyyətini müəyyən edən və onları məhdudlaşdıran bir substansiya kimi qəbul olunmamalı, əksinə qadınların azadlığının şərti və vasitəsi kimi dərk edilməlidir" [1, s. 47]. "Sarışın" romanında Norma Cinin (Merilin Monronun) mediada ideallaşdırılmış qadın obrazına çevrilməsi onu ictimai nümayiş obyektinə çevirərək kimliyini itirməsinə səbəb olur.

C.Batlerin poststrukturalist feminist nəzəriyyəsinə əsasən gender sosial normalar və performativ aktlar vasitəsilə daim yenidən yaradılan konstruksiyadır. Monro cəmiyyətin gözləntilərinə uyğun obrazda yaşamağa məcbur qalmış qadın olduğundan nəinki kimliyini tapa bilmir, hətta mövcudluğunu da sorğulayır: *"She had never been Norma Jeane. That was a name for a ghost. She had never been Marilyn Monroe either. That was a name for a legend, and legends were not real"* [8, s. 214]. – (O, heç vaxt Norma Cin olmamışdı, bu, bir ruhun adı idi. Həmçinin Merilin Monro da deyildi. Bu isə heç də gerçək olmayan bir əfsanənin adı idi – G.Ə.).

Laura Malvi isə "Vizual həzz və təhkiyəvi kino" [6] adlı məqaləsində qeyd edir ki, qadınlar kino və mədəniyyət vasitəsilə kişi baxışının obyektinə çevrilir. Bu baxımdan Merilin Monro öz bədəni və görünüşü üzərində nəzarəti itirir, kişilərin yaratdığı mifə çevrilir: *"They don't see me. They see a fantasy. And I am trapped inside her"* [8, s. 346]. – Onlar məni görmürlər, Onlar fantaziya görürlər. Və mən bunun içində sıxışıb qalmışam. - G.Ə.).

Romanda Norman Cinin "ölümü" və Merilin Monronun "yaradılışı" qadın kimliyinin media və cəmiyyət tərəfindən inşa edilən performativ simulyasiyasını vurğulayır. J. Bodriyarın simulyakr nəzəriyyəsinə görə, simulyasiya reallığın yerini alan hiperreallıqdır, simulyakr artıq gerçəyin əksi deyil, gerçəyin əvəz olunmuş formasıdır. Merilin Monro obrazı da məhz media bataqlığının simulyasiya etdiyi qadın kimi görünür.

“Bataqlıqdakı qadın” romanında isə Outs qadın subyektivliyinə başqa rakursdan yanaşır. Ceri Merser (M.R. Meredit Rut Noykirxen) uşaqlıqda anası tərəfindən bataqlığa atılır və bu travmatik təcrübə sonradan onun bütün sosial və psixoloji həyatına sirayət edir, şüuraltında daim təkrarlanır. Z.Freyd travmanı insanın şüuraltına sıxışdırılmış, lakin tam unudula bilməyən təcrübə kimi izah edir: “Travma unudulmur, istəmədən, yuxularla, nevrotik sarsıntılarla geri qaydır” [4, s. 45]. Romanda M.R. keçmiş travmasını unutmağa çalışsa da bataqlıq metaforası onun psixoloji vəziyyətinə hər an təsir göstərir: *“She had never left the mud, never escaped its pull. In dreams, she felt it clinging to her, whispering her name”* [9, s. 178]. – (O, heç vaxt bataqlıqdan “çıxa bilməmişdi”. Yuxularında palçığın ona yapışdığını, adını pıçıldadığını hiss edirdi” – G.Ə.).

Fransız psixoanalitiki Jak Lakan da unudulmaq istənilən travmatik təcrübələrin subyekt üzərində davamlı təsirini qeyd edir. Lakanın mülahizəsinə əsasən bataqlıq Meredit Rutun **(**M.R.-in) keçmişdə yaşadığı travmanın təmsil olunmamış, lakin silinməsi mümkün olmayan psixoloji yükünü ifadə edərək onun şəxsiyyətində psixoloji dağılmanın fonunu təşkil edir.

“Bataqlıqdakı qadın” bir növ yazıçının “Qara su roman”ının davamı hesab olunur. “Qara su” romanında məlum olduğu kimi, Çappakuiddik hadisələrinə diqqət çəkilir və gənc qız Meri Kopeçnenin (romandakı adı Keri Kelleher) müəmmalı ölümünün arxasındakı sirlər araşdırılır. 1969-cu ildə Senator Kennedinin idarə etdiyi avtomobilin qəzaya uğraması nəticəsində kanala düşən maşında boğularaq ölən Meri Kopeçnenin “qara suda” boğulduğu dəqiqələrdəki assosiativ fikirləri və iztirabları C.K.Outs tərəfindən ustalıqla təsvir olunur. Senatorun maşından çıxsa da qıza kömək etməməsi, hətta hadisə ilə bağlı gec məlumat verməsi və özünü təqsirli bilməməsi nəinki patriarxal cəmiyyətdə qadına münasibəti göstərir, hətta Amerika mühitinin siyasi, sosial, mədəni və gender aspektlərinə bir daha diqqət çəkir. “Qara su”da boğulan Kellidən fərqli olaraq “Bataqlıqdakı qadın”da Meredit atıldığı bataqlıqdan xilas ola bilir. Kelli öz hekayəsini danışa bilmir, çünki ağciyərlərini dolduran su onu öldürür. Mereditin isə sağ qalması ona öz təcrübəsini danışa biləcəyinə zəmanət vermirdi. Qızın ağzını dolduran palçıq yetkinlik yaşına çatanda belə onun nitqini bloklamaq üçün “geri qayıdır”. Həqiqətən də, o, hətta işləyərkən belə, başqalarının çıxışlarını kəsə bilməyən insan kimi təsvir olunur.

Kelli ölməzdən əvvəl, xüsusən də Senatorun yanında danışmaqdan çəkinirdi. Hətta dostu Baffi ondan niyə ziyafətdən tez ayrılmalı olduğunu soruşanda Kelli cavab verə bilmir, “Çünki o, məndən bunu istəyir, israr edir” [7, s. 7] deyir. O, hətta Senatorla naməlum küçələrdə gəzdiklərini anlayanda azdıqlarını düşünür, lakin Senatoru bezdirmək qorxusundan heç nə demir. E.R.Consa görə bu, “kişilərin ilk və son sözün sahibi olduğu cəmiyyətdə qadınlarda yaranan tərəddüd” kimi müəyyən edilən bir xüsusiyyətdir [5, s. 379]. Üstəlik, bu tərəddüd gender rolları ilə əlaqəli stereotiplərin nəticəsidir, “səssiz qadınlar yaşadıqları gücsüzlüyü qəbul edir və əks

etdirirlər", çünki "kişilər aktivdirlər və işləri görürlər, qadınlar isə passiv və bacarıqsızdırlar" [3, s. 29]. Mereditin isə öz fikrini demək qorxusu anasının onu öldürmək cəhdinin birbaşa nəticəsidir. Baş obrazın xilas olduğu və öz hekayəsini danışa bildiyi, bütün susan və susdurulmuş qadınların səsi ola bildiyi "Bataqlıqdakı qadın" romanı bu baxımdan "Qara su" romanının ideal davamı hesab oluna bilər.

Hər iki romanda Kelli və Meredit çətin vəziyyətdə qalan və köməyə ehtiyacı olan qadınlar kimi təsvir olunur. Bu təsvir ənənəvi olaraq onları xilas edəcək bir "şahzadə"yə ehtiyac yaradır. Keçmiş gender rollarına görə kişilər qadınları qoruyan tərəf kimi qəbul edilsə də, Outsun romanlarında kişi gücü qoruyucu yox, əksinə, qadınlar üzərində basqı yaradan və onları boğan bir qüvvə kimi görünür. Bu güc çox vaxt adi və zərərsiz görünən davranışlarda özünü göstərir. Məsələn, kişinin qadının əlini lazım olduğundan bir qədər çox sıxması və qadının gözündə yaranan ağrıdan zövq alması bu nümunələrdəndir. Bu kimi zərərsiz görünən jestlər romanın sonunda ən yüksək nöqtəyə çatır: Senatorun Kellinin bədənindən avtomobildən çıxmaq üçün dayaq kimi istifadə etməsi onun gücünün qorumağa yox, idarə etməyə və özünü üstün göstərməyə yönəldiyini açıq şəkildə göstərir.

Mereditin hekayəsində isə hadisələr başqa cür cərəyan edir, o, gec də olsa xilas edilir. Lakin onu xilas edən şəxs ənənəvi hekayələrdəki kimi cazibədar "şahzadə" deyil. Mereditin xilaskarı əqli gerilik yaşayan Suttis Coldham adlı bir oğlandır. O, "Qarğaların Kralı" adlandırdığı sirli varlığın onu Merediti xilas etməyə göndərdiyinə inanır. Əqli cəhətdən zəif bir oğlanın seçilməsi onun məhz saflığı ilə əlaqələndirilir. Əsərdə belə həssas və incə bir işi görə biləcək yeganə şəxs o olur. Bu ziddiyyət müəllifin qəhrəmanlığın ən gözlənilməz obrazlarda ortaya çıxa biləcəyini göstərmək istəyini ifadə edir.

Mereditin düşüncələri "Qara su"da baş verən hadisələrin ən uyğun şərhlərindən biri kimi dəyərləndirilə bilər. O, yolun uçduğu anı təsəvvür edir və həmin anda ərazidə maşınların olmadığını nəzərə alaraq bunun baş verməsinin mümkün olub-olmadığını bir anlıq düşünür. Bu hadisənin də Kellinin qəzası kimi ani və gözlənilməz baş verdiyini güman edir. "Maşın çaya aşır və bu dəhşətə şahid olan heç kim yoxdur" cümləsi isə istər-istəməz "Qara su" romanında suya düşən avtomobilin içində tək, köməksiz və qorxu içində qalan qadını xatırladır.

Mereditin ölüm haqqındakı düşüncələri də "Qara su" romanının məntiqi ardıcıllığına uyğun gəlir. Outs təsadüfi ölümü "ən mərhəmətli ölüm" kimi hesab etsə də onun bu fikri Çappaquiddik hadisəsi ilə uyğunluq təşkil etmir. Çünki Merinin ölümü nə təsadüfi, nə də qaçılmaz idi: əgər Ted Kennedi qəzanı dərhal xəbər versə və yardım çağırsaydı, onu xilas etmək mümkün ola bilərdi. Hadisəni gecikdirərək bildirməsi ölümü daha qəddar edir, çünki bu, artıq yalnız tale deyil, başqasının etinadsızlığına görə baş verən ölümdür.

Təhlillərdən aydın olduğu kimi, C.K.Outsun romanları müasir ədəbiyyatda qadın kimliyinin sosial-mədəni konstruksiyası və psixoloji çöküşünü təsvir edən

dərin və simvolik mətnlərdir. Romanlardakı "bataqlıq" metaforası qadınların cəmiyyətdə və ailədə rastlaşdığı şiddəti, şəxsiyyətlərinin dekonstruksiyasını və psixoloji parçalanmasını simvollaşdırır, onların travma və sosial təzyiq, etinasızlıq nəticəsində unudulmuş, məhv edilmiş və ya əzilmiş vəziyyətlərini göstərir: "O, batırdı. Suda yox, daha dərində, heç kimin ona çata bilməyəcəyi bir yerdə" [8, s. 411], "Palçıq unutmur. Ona atılanı möhkəm saxlayır" [9, s. 302].

Elen Siksu "Meduzanın gülüşü" [2] yazısında su, palçıq və bataqlıq kimi axıcı və qeyri-sabit metaforaların qadın təcrübəsinin ayrılmaz hissəsi olduğunu qeyd edir. Bu nöqteyi nəzərdən, Outsun romanlarında bataqlıq qadınların psixoloji və sosial təlatümlərini ifadə edir. "Qara su" romanında bataqlıq Kellinin xilas olmaq ümidi ilə çırpınaraq suda batmasını, "Bataqlıqdakı qadın"da M.R.-in uşaqlıq travmasının unudulmamasını, "Sarışın"da isə Monronun cəmiyyət və medianın yaratdığı miflərin içində itməsini, psixoloji çöküşünü və şəxsiyyətinin parçalanmasını göstərir. Monro iki kimlik arasında qalması onun daxilində qarşıdurmaya səbəb olur: "Merilin gülümsəyirdi. Norma isə içində ağlayırdı. O, artıq öz gerçək kimliyi ilə əlaqəsini itirir və cəmiyyətin yaratdığı obraz onun şəxsi "mən"ini əvəz edir [8, s. 310].

"Bataqlıqdakı qadın" romanında isə Ceri Merser uşaqlıq travmalarını unutmaq imkanından məhrumdur və psixoloji olaraq iki kimliyə parçalanmışdır: biri uşaqlıqda bataqlığa atılmış və susdurulmuş uşaq, digəri isə akademik uğurlar qazanan yetkin qadın. Bataqlıq həm fiziki, həm də simvolik məkan kimi M.R.-in travmasının simvolu, sosial damğalanma və təcrid metaforası olaraq çıxış edir: "Bataqlıq sadəcə palçıq deyildi. Bataqlıq onun yaddaşı, qorxusu və sükutu idi" [9, s. 280].

Təhlillərdən belə nəticəyə gəlmək olar ki, bataqlıq metaforası Outsun romanlarında qadınları cəmiyyət və media tərəfindən unudulmuş, təzyiqlə məhv edilmiş varlıqlar kimi təqdim edir. Qadının şəxsiyyət kimi qəbul edilməməsi həm psixoloji parçalanmanı, həm də cəmiyyətin qadını susduran və kimliyini məhv edən strukturlarını açıq şəkildə üzə çıxarır. Kelli nə qədər acınacaqlı olsa da Kennedini özünə doğma bilirdi və onu xilas edəcəyinə ümidi var idi, Merilin Monro media üçün kimliyini dəyişməsinə baxmayaraq, cəmiyyətin və medianın yaratdığı gözləntilərin bataqlığında ilişib qaldı və nəticədə həm fiziki, həm də psixoloji olaraq məhv oldu. M.R. / Ceri Merser isə əksinə bataqlıqdan çıxaraq ölümə və cəmiyyətə meydan oxudu, uşaqlıq travmasını və sosial təzyiqləri nəzərə alaraq kimliyini məqsədli şəkildə dəyişdi və beləliklə həm sosial, həm də psixoloji baxımdan sağ qalaraq öz kimliyini qorumağı bacardı.

## ƏDƏBİYYAT SİYAHISI

1. Butler J. Gender trouble: Feminism and the Subversion of Identity. URL: https://selforganizedseminar.wordpress.com/wp-content/uploads/2011/07/butler-gender_trouble.pdf

2. Cixous H. The laugh of the Medusa. Vol. 1, No. 4. 1976, pp. 875-893. URL: https://artandobjecthood.wordpress.com/wp-content/uploads/2012/06/cixous_the_laugh_of_the_medusa.pdf
3. Field Belenky, M. Women's Ways of Knowing: The development of Self, Voice, and Mind. New York: Basic Books, 1997. 288 p.
4. Freud S. Beyond the Pleasure Principle. W. W. Norton & Company. 1990. 144 p.
5. Jones, A. R. Writing the Body: Toward an Understanding of L'ècriture Féminine. In: Feminine Studies, N. 2, Summer 1981.
6. Mulvey L. Visual pleasure and narrative cinema. URL: https://www. amherst. edu/system/files/media/1021/Laura%20Mulvey%2C%20Visual%20Pleasure.pdf
7. Oates J. C. Black Water. New York: Plume. 1992. 160 p.
8. Oates J. C. Blonde. Ecco. 2000. 752 p.
9. Oates J.C. Mudwoman. Ecco. 2012. 428 p.

**Aliyeva Gunay Telman**

**SUMMARY**

## THE METAPHOR OF THE "SWAMP" IN J. C. OATES'S NOVELS

The article analyzes the socio-cultural construction of female identity, psychological fragmentation and trauma experience in the novels of the contemporary American writer J. C. Oates, "Black Water", "Blonde" and "Mudwoman". The images of Kelly, Marilyn Monroe and Meredith, which Oates presents and which are formed against the background of gender inequality, social stereotypes and structures of violence created by the patriarchal society, are examined in terms of the degradation of female subjectivity based on C. Butler's theory of gender, Z. Freud and J. Lacan's theories of trauma, as well as J. Baudrillard's concept of simulacrum. It is shown that metaphors such as "swamp" and "black water" have a symbolic meaning related to the silencing, forgetting and destruction of women's identity. Oates presents female images as both victims of patriarchal violence and subjects capable of rebuilding their identity by overcoming trauma. The article also analyzes the swamp metaphor as a key artistic device to show the fragmentation of female identity on both a real and symbolic level.

**Keywords:** female identity, media swamp, childhood trauma, psychological fragmentation, identity crisis

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 573-579*

**Алиева Гюнай Тельман**

**РЕЗЮМЕ**

**МЕТАФОРА «БОЛОТА» В РОМАНАХ ДЖ. К. ОУТС**

В статье анализируется социокультурное конструирование женской идентичности, психологической фрагментации и опыта травмы в романах современной американской писательницы К. К. Оутс «Черная вода», «Блондинка» и «Женщина из болота». Образы Келли, Мэрилин Монро и Мередит, представленные Оутсом и формирующиеся на фоне гендерного неравенства, социальных стереотипов и структур насилия, созданных патриархальным обществом, рассматриваются с точки зрения деградации женской субъективности, опираясь на теорию гендера К. Батлер, теории травмы З. Фрейда и Ж. Лакана, а также концепцию симулякра Ж. Бодрийяра. Показано, что метафоры «болото» и «черная вода» имеют символическое значение, связанное с замалчиванием, забвением и разрушением женской идентичности. Оутс представляет женские образы как жертв патриархального насилия, так и субъектов, способных восстанавливать свою идентичность, преодолевая травму. В статье также анализируется метафора болота как ключевой художественный прием, позволяющий показать фрагментацию женской идентичности как на реальном, так и на символическом уровне.

**Ключевые слова:** женская идентичность, медиаболото, детская травма, психологическая фрагментация, кризис идентичности

**Rəyçi: f.e.d., prof. A.Z.Sabitova**